# Bakıda İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Əmək Nazirləri Konfransı işə başlayıb

## Konfransın Nazirlər Sessiyasına hazırlıq iclası keçirilir

Bakı Konqres Mərkəzində İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv Dövlətlərin Əmək Nazirlərinin 5-ci Konfransı öz işinə başlayıb. Konfransın Nazirlər Sessiyasına hazırlıq iclası keçirilir.



Bu barədə AZƏRTAC-a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilib ki, iclas müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başlayıb.

İƏT Əmək Nazirlərinin 4-cü Konfransının sədri Səudiyyə Ərəbistanı Krallığının İnsan Resursları və Sosial İnkişaf Nazirliyinin nümayəndəsi Adnan Abdulla Al Nuaim iclası giriş sözü ilə açaraq konfransın üzv ölkələr arasında əlaqələrin inkişafında önəmini qeyd edib.

Sonra səsvermə ilə İƏT Əmək Nazirlərinin 5-ci Konfransına sədrlik Azərbaycan Respublikasına həvalə olunub.

Konfransın sədri seçilən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov göstərilən etimada görə iştirakçılara təşəkkür edib və toplantının işinə uğurlar arzulayıb.

O, islam ölkələri arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əlaqələrin genişlənməsində İƏT-ə üzv ölkələrin əmək nazirləri konfranslarının xüsusi əhəmiyyətini, hazırkı konfransın da bu istiqamətdə növbəti irəliləyişə hədəfləndiyini vurğulayıb. Nazir müavini gənclərin sayına görə İƏT-ə üzv ölkələrin dünya ölkələri arasında ön sıralarda olduğunu və həmin ölkələrdə gənclərin məşğulluğunun təminatının aparılan siyasətlərin əsas istiqamətlərindən birini təşkil etdiyini bildirib.

A.Kərimov işsizliyin aradan qaldırılmasında insan kapitalının inkişafının, potensialın gücləndirilməsinin, rəqəmsal inkişafın, yüksək texnologiyaların geniş tətbiqinin xüsusi önəmini və bu mövzuların hazırkı konfrans üçün də aktual ola biləcəyini qeyd edib.

İclasda İƏT baş katibinin iqtisadi məsələlər üzrə müavini Əhməd Sengendo çıxış edib. Sonra ilk işçi sessiya çərçivəsində iclasın gündəliyi və proqramı qəbul edilib. Konfransın qətnamələri və İƏT Əmək Bazarı strategiyasının icrası ilə bağlı təqdimatlar edilib, müzakirələr aparılıb.

İclasda həmçinin İƏT-in Bakıda fəaliyyətə başlayacaq Əmək Mərkəzinin Baş Assambleyasının açılış sessiyasına hazırlıq görülərək, Baş Assambleyanın sədr və sədr müavinləri, Əmək Mərkəzinin İdarəetmə Şurasının sədri və sədr müavinləri, Şura üzvləri, İƏT Əmək Mərkəzinin baş direktoru seçiləcək.

Azərbaycan.- 2023.- 22 noyabr, № 254.- S.2.